# MİLLİ KİMLİK GÖSTƏRİCİSİ – ETNOEKOLOGİYA

**Güllü Yoloğlu**

*AMEA-nın Tarix və Etnologiya İnstitutu, Bakı*
*yologlugullu@gmail.com*

Etnoekologiya etnologiyanın bir sahəsi olaraq müxtəlif yerlərdə yaşayan ayrı-ayrı insan qruplarının ətraflarındakı ekosistemi dərk etmələrini və ətraf mühitə münasibətlərini araşdırır... İnsan günümüzdə təbiəti dağıtmaq yolu ilə şəxsi həyatının yaxşılaşdırılmasına çalışsa da, özünün də təbiətin bir hissəsi olduğunu, onu məhv etməklə özünü də məhv etdiyini anlayır.

Etnoekologiya məfhum kimi Azərbaycanda geniş yayılmasa da, əsrlər boyu türk xalqlarının yaşadığı çevrə ilə təmaslarını tükədici ehtiras üzərində qurmadıqlarını, yəni təbiətin yerüstü və yeraltı nemətlərinin kökünü kəsmədiklərini, gələcək nəsillərin də bu nemətlərdən bəhrələnməsinə şərait yaratdıqlarını, Tanrının onlara verdiyi, hər bir şeyə görə minnətdar olduqlarını görürük. Bütün bunlar təbiətlə insan arasında gözəgörünməz, bir növ də magik qüvvənin və bu qüvvəyə inamın olması sayəsində mümkün olmuşdur. Lakin ermənilər 30 il işğal altında saxladıqları ərazilərə dağıdıcı, tükədici, talançı münasibət göstərərək, sözün əsl mənasında bölgənin təkcə şəhər və rayonlarını deyil, eyni zamanda meşələrini, sularını, dağ-daşını belə ekoloji terrora məruz qoymuşlar... Azərbaycanda, eləcə də türk dünyasının digər ölkələrində iqlim dəyişikliyinin yaratdığı təhlükənin qarşısının az da olsa alınması yönündə bir sıra tədbirlər görülmüş, toplantılar keçirilmiş, geniş ictimaiyyətə fəsadlar haqqında məlumat verilmişdir. Bu yöndə atılan ən böyük addım isə COP29-un Bakıda keçirilməsinə nail olmaqdır...